## Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası

№ 1

## QƏRAR

Bakı şəhəri, 4 fevral 2016-cı il

# Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi barədə

Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 26 dekabr tarixli 341 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası haqqında Əsasnamə"yə, Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 3 iyun tarixli 209 nömrəli qərarı ilə təsdiq edilmiş "Dövlət qeydiyyatına alınmış dərman vasitələrinin qiymətlərinin tənzimlənməsi və həmin qiymətlərə nəzarətin həyata keçirilməsi Qaydası"na və Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının 2015-ci il 21 iyul tarixli 4 nömrəli qərarı ilə təsdiq edilmiş "Dərman vasitələrinin qiymətlərinin hesablanması üsullarına dair Təlimat"a uyğun olaraq Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası **qərara alır:**

1. Bu qərara Əlavə 1-də göstərilən siyahı üzrə dərman vasitələrinin aptek təşkilatlarına topdan və aptek təşkilatı tərəfindən pərakəndə satış qiymətləri və onların qüvvəyə minmə tarixləri təsdiq edilsin.

2. Müəyyən edilsin ki, 2016-cı il 25 fevral tarixindən etibarən bu qərara Əlavə 2-də göstərilən təsiredici maddələr üzrə (bu Əlavədə göstərilməyən digər kombinə olunmuş dərman vasitələri istisna olmaqla) qiymətləri təsdiq edilməyən dərman vasitələrinin satışı yalnız həmin dərmanların qiymətləri təsdiq edildikdən sonra həyata keçirilə bilər.

3. Bu qərara Əlavə 3-də göstərilən təsiredici maddələr üzrə dərman vasitələrinin qiymətlərinin təsdiqlənməsi üçün sənədlərin (bəyannamələrin) qəbulunun son müddəti 2016-cı il fevral ayının 22-dək müəyyən edilsin.

4. Nəzərə alınsın ki, bu qərarın 1-ci hissəsi ilə təsdiq edilmiş Əlavə 1 Azərbaycan Respublikasının Tarif (qiymət) Şurası tərəfindən qiymətləri tənzimlənmiş dərman vasitələri üzrə onların ticarət adını, təsiredici maddəsinin adını, dozasını, farmasevtik formasını, ticarət qablaşdırmasını, qablaşdırma miqdarını, istehsal ölkəsini, istehsalçı şirkətini, aptek təşkilatlarına topdan və aptek təşkilatı tərəfindən pərakəndə satış qiymətini və qüvvəyə minmə tarixini əks etdirən icmal siyahıdır.

5. Azərbaycan Respublikası Tarif (qiymət) Şurasının Katibliyi bu qərardan irəli gələn məsələlərlə bağlı zəruri tədbirlərin görülməsini təmin etsin.

6. Bu qərar imzalandığı gündən qüvvəyə minir.

***Şahin MUSTAFAYEV,***
***Azərbaycan Respublikası***
***Tarif (qiymət) Şurasının sədri***

Qeyd olunan dərmanların tam siyahısı və qiymətləri ilə "Azərbaycan" qəzetinin rəsmi internet səhifəsində *www.azerbaijan-news.az tanış ola bilərsiniz.*